Independent AUDITOR Services

atf

ACCOUNTING
FINANCE
TAXES

Scanned with CamScanner

# “LAB TEST”
## Qapalı Səhmdar Cəmiyyətinin

## 31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə
## Maliyyə Hesabatları və
## Müstəqil Auditorun Hesabatı

Scanned with CamScanner

# Mündəricat

**Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat** ....1

**Müstəqil auditorun hesabatı** .... 2-3

**Maliyyə hesabatları**

Maliyyə vəziyyəti haqqında hesabat ....4
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ....5
Kapitalda dəyişikliklər haqqında hesabat ....6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ....7

**Maliyyə Hesabatlarına Qeydlər**

1 Cəmiyyət haqqında ümumi məlumat ....8
2 Cəmiyyətin əməliyyat mühiti ....8
3 Əsas uçot siyasəti .... 9-16
4 Mühüm mühasibat uçotu mühakimələri və təxminlərlə bağlı qeyri-müəyyənliklərin əsas mənbələri ....16
5 Yeni və düzəliş edilmiş standartların tətbiqi ....16
6 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəlik edilmiş MHBS üzrə Uçot Standartları .... 16-17
7 Torpaq, tikili və avadanlıqlar....17
8 Mal-material ehtiyatları ....17
9 Ticarət və digər debitor borclar ....17
10 Pul vəsaitləri və onların ekvivalentləri ....18
11 Sair qısamüddətli aktivlər ....18
12 Uzunmüddətli öhdəliklər ....18
13 Ticarət və digər kreditor borclar....18
14 Gəlirlər....18
15 Satışın maya dəyəri ....18
16 Ümumi və inzibati xərclər ....19
17 Maliyyə gəlirləri/(xərcləri) ....19
18 Əlaqəli tərəflərlə əməliyyatlar ....19
19 Təəhhüdlər və şərti öhdəliklər.... 19-20
20 Maliyyə risklərinin idarə edilməsi .... 20-21
21 Kapitalın idarə edilməsi ....21
22 Ədalətli dəyər haqqında açıqlamalar ....22
23 Hesabatdan tarixindən sonra baş vermiş hadisələr....22

Scanned with CamScanner

**31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat**

Rəhbərlik "LAB TEST" QSC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu siyasətlərinin müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu siyasətlərinin müvafiq, etibarlı, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə; və
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyətdə sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini və təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərini aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə maliyyə hesabatları 30 aprel 2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiq edilmişdir.

Cəmiyyət tərəfindən:

| | |
|---|---|
| **Direktor** | **Mühasib** |
| Sadıxov Anar Ramiz oğlu | Balıyev Nahid Natiq oğlu |

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ LAB TEST CLOSED JOINT-STOCK COMPANY THE REPUBLIC OF AZERBAIJAN



Scanned with CamScanner

*"ATF AUDİT" MMC*
*Bakı şəhəri Binəqədi rayonu,*
*Cavad Xan, ev.51, m.11*
*Tel: +994 (70) 237 99 99*
*y.aghayev@atfaudit.az*

## MÜSTƏQİL AUDİTORUN HESABATI

"LAB TEST" QSC-nin təsisçisinə və rəhbərliyinə,

**Rəy**

Biz "LAB TEST" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-a uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında ümumilikdə saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına (BAS-a) uyğun olaraq aparılmış auditin belə təhrifləri hər zaman aşkar edilməsinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin bu cür



Scanned with CamScanner

maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri- müəyyənliyin mövcud olub-olmadığında dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğuna dair qənaətə gəldiyimiz halda, audit hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

AZƏRBAYCAN RESPUBLİKASI LLC ATF AUDİT MMC AZƏRBAIJAN REPUBLIC

**Yaqub Ağayev**
**Direktor - auditor**

30 aprel 2026-cı il
Azərbaycan Respublikası, Bakı şəhəri



Scanned with CamScanner

| *Azərbaycan manatı ilə* | **Qeyd** | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 7 | 71,688 | 47,342 |
| Uzunmüddətli debitor borcları | 9 | 387,782 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **459,470** | **47,342** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 8 | 533,314 | 197,117 |
| Qısamüddətli debitor borcları | 9 | 109,183 | 768,887 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 99,760 | 178,072 |
| Sair qısamüddətli aktivlər | 11 | 738,188 | 126,340 |
| **Cəmi qısamüddətli aktivlər** | | **1,480,445** | **1,270,416** |
| **CƏMİ AKTİVLƏR** | | **1,939,915** | **1,317,758** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 2,000 | 2,000 |
| Bölüşdürülməmiş mənfəət | | 216,470 | 724,883 |
| **CƏMİ KAPİTAL** | | **218,470** | **726,883** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc vəsaitləri | 12 | 141,611 | - |
| Uzunmüddətli kreditor borcları | 13 | 1,521,147 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **1,662,758** | - |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 13 | 58,687 | 590,875 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **58,687** | **590,875** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,721,445** | **590,875** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,939,915** | **1,317,758** |

30 aprel 2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır.

**Direktor**
Sadıxov Anar Ramiz oğlu

**Mühasib**
Balıyev Nahid Natiq oğlu



Scanned with CamScanner

| *Azərbaycan manatı ilə* | **Qeyd** | **31 dekabr 2025-ci il tarixinə bitən il üzrə** | **31 dekabr 2024-cü il tarixinə bitən il üzrə** |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 14 | 3,946,848 | 4,954,267 |
| Satışın maya dəyəri | 15 | (3,106,524) | (3,847,539) |
| **Ümumi mənfəət** | | **840,324** | **1,106,728** |
| Ümumi və inzibati xərclər | 16 | (784,201) | (629,180) |
| **Cəmi əməliyyat xərcləri** | | **(784,201)** | **(629,180)** |
| **Əməliyyat mənfəəti** | | **56,123** | **477,548** |
| Maliyyə gəlirləri (xərcləri) | 17 | - | (2,838) |
| **Vergidən əvvəlki mənfəət (zərər)** | | **56,123** | **474,710** |
| Mənfəət vergisi | | (11,225) | (94,942) |
| **Xalis mənfəət (zərər)** | | **44,898** | **379,768** |

30 aprel 2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır.

**Direktor**
Sadıxov Anar Ramiz oğlu

**Mühasib**
Balıyev Nahid Natiq oğlu

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ LAB TEST CLOSED JOINT-STOCK COMPANY THE REPUBLIC OF AZERBAIJAN



Scanned with CamScanner

| *Azərbaycan manatı ilə* | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **2,000** | **659,526** | **661,526** |
| 2024-cü il üzrə yaranan xalis mənfəət (zərər) | - | 379,768 | 379,768 |
| 2024-cü il üzrəmülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | - | (314,411) | (314,411) |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **2,000** | **724,883** | **726,883** |
| 2025-ci il üzrə yaranan xalis mənfəət (zərər) | - | 44,898 | **44,898** |
| 2025-ci il üzrəmülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | - | (553,311) | **(553,311)** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **2,000** | **216,470** | **218,470** |

30 aprel 2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır.

**Direktor**
Sadıxov Anar Ramiz oğlu

**Mühasib**
Balıyev Nahid Natiq oğlu



Scanned with CamScanner

| *Azərbaycan manatı ilə* | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki (zərər)/mənfəət | | 56,123 | 474,710 |
| *Düzəlişlər:* | | | |
| Hesablanmış faizlər | 17 | - | 2,838 |
| Torpaq, tikili və avadanlıqlar üzrə köhnəlmə xərcləri | 7 | 23,314 | 15,052 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | 79,437 | 492,600 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | 8 | (336,197) | (170,539) |
| Debitor borclarda xalis (artım)/azalma | 9 | 271,922 | 224,377 |
| Sair aktivlər (artım)/azalma | 11 | (611,848) | 178,306 |
| Kreditor borclar (azalma)/artım | 13 | 988,959 | 87,152 |
| Sair uzunmüddətli öhdəliklər (azalma)/artım | 12 | 141611 | - |
| Sair öhdəliklər (azalma)/artım | | - | (248,874) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Ödənilmiş mənfəət vergisi | | (11,225) | (94,942) |
| Ödənilmiş faizlər | 17 | - | (2,838) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə olunan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **522,659** | **465,242** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | | |
| Torpaq, tikili və avadanlıqların alınması | 7 | (47,660) | (12,064) |
| **İnvestisiya fəaliyyəti üzrə əldə olunan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **(47,660)** | **(12,064)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödənilmiş dvidendlər | | (553,311) | (314,411) |
| **Maliyyələşdirmə fəaliyyətindən əldə olunan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **(553,311)** | **(314,411)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(78,312)** | **138,767** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 10 | **178,072** | **39,305** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 10 | **99,760** | **178,072** |

30 aprel 2026-cı il tarixində rəhbərlik tərəfindən təsdiqlənmiş və imzalanmışdır.

**Direktor**
Sadıxov Anar Ramiz oğlu

**Mühasib**
Balıyev Nahid Natiq oğlu

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ LAB TEST CLOSED JOINT-STOCK COMPANY THE REPUBLIC OF AZERBAIJAN



Scanned with CamScanner

## 1 Cəmiyyət haqqında ümumi məlumat

***Ümumi informasiya.*** Hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq "LAB TEST" QSC üçün hazırlanmışdır. Cəmiyyət Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq Azərbaycanda qeydiyyatdan keçmiş və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət 08 oktyabr 2020-ci il tarixdə "qapalı səhmdar cəmiyyəti" olaraq dövlət qeydiyyatından keçmişdir (qeydiyyat nömrəsi: 1505228111)

Cəmiyyətin təsisçiləri Azərbaycan Respublikasının vətəndaşları –Axundov Vaqif Müzəffər oğlu (66%), Quliyeva Könül Rasim qızı (15%) və Sadıxov Anar Ramiz oğludur (19%). Cəmiyyətin elan edilmiş və ödənilmiş kapitalı 2,000.00 (iki manat,00 qəpik) AZN olmuşdur

***Cəmiyyətin hüquqi ünvanı***: Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, İbrahimpaşa Dadaşov, ev 52, mənzil 115.

***Cəmiyyətin faktiki ünvanı***: Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev ev 93.

***Cəmiyyətin fəaliyyəti:*** "LAB TEST" QSC müxtəlif növ mal material, avadanlıqlar və onların ehtiyat hissələrinin topdan satışı ilə məşğul olur.

**2 Cəmiyyətin əməliyyat mühiti.** Cəmiyyətin əməliyyatları əsasən Azərbaycan Respublikasında yerləşir. Nəticə etibarilə, cəmiyyət inkişaf etməkdə olan bazar xüsusiyyətləri nümayiş etdirən Azərbaycan Respublikasının iqtisadi və maliyyə bazarlarının təsirinə məruz qalır. Hüquqi, vergi və tənzimləyici çərçivələr inkişaf etməkdə davam edir, lakin onlar müxtəlif şərhlərə və tez-tez dəyişikliklərə məruz qalır ki, bu da digər hüquqi və fiskal maneələrlə birlikdə Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələrin üzləşdiyi çətinlikləri artırır.

Azərbaycan Respublikasının iqtisadiyyatı xüsusilə neft və qaz qiymətlərinə həssasdır. Son illər ərzində Azərbaycan hökuməti daha balanslaşdırılmış iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq məqsədilə geniş iqtisadi və sosial islahatları davam etdirmişdir. Bu səylər diversifikasiyaya yönəlmiş, qeyri-neft sektoru isə artımın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. 2025-ci ildə onun ÜDM-də payı kənd təsərrüfatı, sənaye, nəqliyyat və xidmət sahələrində güclü nəticələrin dəstəyi ilə təxminən 71.5%-ə yüksəlmişdir. 2025-ci ildə qeyri-neft sektoru ÜDM-i 2.7% artdığı halda, neft-qaz sektoru 1.6% azalmış, nəticədə karbohidrogen hasilatının azalması fonunda ümumi ÜDM il üzrə cəmi 1.4% artmışdır. Dövlət Neft Fondunun və davam edən ixrac gəlirlərinin dəstəyi ilə xarici valyuta ehtiyatları yüksək səviyyədə qalmışdır. Bu, ölkənin güclü xarici mövqeyini qoruyub saxlamış, cari hesabda əhəmiyyətli profisit yaratmış və xarici valyuta ehtiyatlarını artırmışdır. Azərbaycan Respublikası Mərkəzi Bankı Azərbaycan manatının sabitliyini qorumuşdur, manatın məzənnəsi 2018-ci ildən etibarən 1 ABŞ dolları üçün 1.7000 səviyyəsində sabit saxlanılmışdır. Qlobal bazarlarda qiymət sabitliyini və Azərbaycanda inflyasiya təzyiqlərinin azalmasını nəzərə alaraq, zərbaycan Respublikası Mərkəzi Bankın yenidən maliyyələşdirmə dərəcəsi 2024-cü ildə 8.00%-dən 7.25%-ə endirilmiş, 2025-ci ilin dekabr ayında isə daha da azaldılaraq 6.75%-ə çatdırılmış və 31 dekabr 2025-ci il tarixinədək dəyişməz qalmışdır.

2024-cü il ABŞ seçkilərindən sonra, 2025-ci ildə tətbiq edilən tarif siyasətləri, o cümlədən Azərbaycandan idxala tətbiq olunan baza 10%-lik tarif səbəbindən iqtisadi qeyri-müəyyənlik artmışdır. Bu şərtlər Azərbaycanın iqtisadi perspektivlərinə təsir göstərməyə davam edə bilər. Bu isə qlobal iqtisadi qeyri-müəyyənliyin yüksək səviyyədə qalmasına səbəb olmuşdur. Nəticədə bazarlarda dəyişkənlik artmış və əmtəə qiymətlərində dalğalanmalar yaranmışdır. Eyni zamanda, qlobal artımın yavaşlaması ilə bağlı narahatlıqlar davam edir. Azərbaycana birbaşa təsirlər məhduddur, çünki ABŞ ilə ticarət həcmi nisbətən kiçikdir və ildə təxminən 400–500 milyon ABŞ dolları təşkil edir. Azərbaycanın ABŞ-a ixracı əsasən qeyri-karbohidrogen məhsullarından ibarətdir və bu sahədə təsir minimal olmuşdur. Dolayı təsirlərə isə qlobal tələbin zəifləməsi narahatlığı səbəbindən neft qiymətləri üzərində müəyyən aşağı təzyiq daxildir. Bu, karbohidrogen gəlirləri üçün əlavə çətinliklər yaratsa da, iqtisadi diversifikasiya prosesi irəliləməkdə davam edir. Güclü valyuta ehtiyatları, manatın sabit məzənnəsi və Orta Dəhliz kimi marşrutlara diqqətin artırılması qısamüddətli pozuntuların qarşısını almağa kömək etmişdir. Bankın rəhbərliyi vəziyyəti yaxından izləyir və əməliyyatlarının davamlılığını və inkişafını dəstəkləmək üçün zəruri qabaqlayıcı tədbirlər həyata keçirir.



Scanned with CamScanner

## 3 Əsas uçot siyasəti

***Maliyyə hesabatlarının tərtibatının əsasları.*** Hazırkı maliyyə hesabatları maliyyə alətlərinin ilkin olaraq ədalətli dəyərlə tanınması və investisiya mülkiyyətinin yenidən qiymətləndirilməsi üzrə dəyişikliklər də nəzərə alınmaqla Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS Mühasibat Uçotu Standartları") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot siyasətləri hər bir müvafiq Qeyddə təqdim edilmişdir. Başqa cür nəzərdə tutulmadığı təqdirdə, həmin uçot prinsipləri maliyyə hesabatlarında təqdim olunmuş bütün dövrlərə ardıcıl olaraq tətbiq edilmişdir. Bu maliyyə hesabatları cəmiyyəyin öz fəaliyyətini yaxın gələcəkdə fasiləsizlik prinsipi ilə davam etdirə biləcəyi fərziyyəsi əsasında hazırlanmışdır ki, bu, adi fəaliyyət zamanı aktivlərin reallaşdırılmasını və öhdəliklərin ödənilməsini nəzərdə tutur.

Maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini də irəli sürməli olur. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr 4-cü Qeyddə açıqlanır.

***Torpaq, tikili və avadanlıqlar.*** Torpaq, tikili və avadanlıqlar hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərlə tanınır. Torpaq, tikili və avadanlıqlar ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin cəmiyyətə daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Torpaq, tikili və avadanlıqların əsas hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Aktivin silinməsindən yaranan gəlir və ya zərər silinmədən daxil olan vəsait ilə həmin aktivin balans dəyəri arasındakı fərq kimi hesablanır və mənfəət və ya zərərdə aktivin silindiyi ildə tanınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda torpaq, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

***Amortizasiya.*** Aktivlərin amortizasiyası azalan qalıq metodu istifadə olunmaqla istismar müddəti boyunca aşağıdakı qaydada hesablanır:

| | |
|---|---|
| Binalar | 35-50 il |
| Maşın və avadanlıqlar | 7-15 il |
| Nəqliyyat vasitələri | 8-15 il |
| Mebel və ofis avadanlığı | 3-5 il |
| İT və hesablama texnikası | 3-5 il |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.
Cəmiyyət icarəyə götürülmüş aktivlərin əsaslı təmiri üzrə amortizasiyanı müvafiq icarə müddəti ərzində hesablamışdır.

**İcarələr.** Cəmiyyət qısamüddətli icarələr və dəyəri az olan aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşması tətbiq edir. Cəmiyyət icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququnu əks etdirən istifadə hüququ olan aktivləri uçotda tanıyır.



Scanned with CamScanner

İstifadə hüququ olan aktivlər

Cəmiyyət istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində (əsas aktivin istifadəyə hazır olduğu tarix) uçotda tanıyır. İstifadə hüququ üzrə aktivlər ilkin dəyəri ilə, yığılmış amortizasiya və mümkün qiymətdən düşmə zərərləri çıxıldıqdan sonra, həmçinin icarə öhdəliklərinin yenidən ölçülməsinə dair düzəlişlər nəzərə alınmaqla qiymətləndirilir. İstifadə hüququ olan aktivlərin dəyərinə uçotda tanınmış icarə öhdəliklərinin məbləği, yaranmış ilkin birbaşa xərclər və icarə ilə bağlı əldə edilmiş güzəştlər çıxılmaqla başlanğıc tarixində və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İcarə müddətinin sonunda icarə aktivi üzrə mülkiyyət hüququnun Cəmiyyətə keçəcəyi haqqında kifayət qədər əminlik olmadığı təqdirdə, uçotda tanınmış istifadə hüququ olan aktivlər ehtimal edilən faydalı istifadə müddəti və icarə müddətinin daha qısa olanı üzrə düz xətt metodu əsasında amortizasiya edilir. İstifadə hüququ olan aktivlər üzrə dəyərsizləşmə hesablanır.

İcarə öhdəlikləri

İcarənin başlanğıc tarixində Cəmiyyət icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini uçotda tanıyır. İcarə ödənişlərinə hər hansı alınacaq güzəştli icarə ödənişləri çıxılmaqla sabit ödənişlər, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri (mahiyyətcə sabit ödənişlər daxil olmaqla), eləcə də qalıq dəyər zamanətləri üzrə ödənilməsi gözlənilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin Cəmiyyət tərəfindən həyata keçirilməsi əsaslı şəkildə müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti icarə müqaviləsini ləğv etmə opsionunun Cəmiyyət tərəfindən həyata keçirilməsini əks etdirdikdə, icarəyə xitam verilməsinə görə tətbiq olunan cərimələrin ödənişləri də daxildir. İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri belə ödənişə səbəb olan hadisə və ya şəraitin baş verdiyi dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən icarə üzrə nəzərdə tutulan faiz dərəcəsini asanlıqla müəyyən etmək mümkün olmadığı halda Cəmiyyət icarənin başlanğıc tarixində mövcud olan artan borc faizindən istifadə edir. Başlanğıc tarixindən sonra icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin qalıq dəyəri icarə müddətində hər hansı bir düzəliş və ya dəyişiklik, mahiyyətcə sabit icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda və ya əsas aktivin satın alınması ilə bağlı qiymətləndirmədə hər hansı dəyişiklik edildikdə yenidən ölçülür.

Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri

Cəmiyyət qısamüddətli icarələrinə qısamüddətli icarənin (yəni başlanğıc tarixindən etibarən icarə müddəti 12 ay və ya daha az olan və alış opsionu olmayan icarələr) tanınması ilə bağlı azadolma tətbiq edir. Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri üzrə ödənişlər icarə müddəti ərzində düz xətt metodu əsasında xərc kimi tanınır.

***Maliyyə alətləri.*** Maliyyə aktivləri və öhdəlikləri Cəmiyyət alətə dair müqavilə şərtlərinə tərəf olduqda Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatında tanınır.

Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivi və ya maliyyə öhdəliklərinin (mənfəət və ya zərər hesabında ədalətli dəyərlə qeyd edilmiş maliyyə aktivləri və öhdəliklərdən başqa) alınması və ya təqdim edilməsinə birbaşa aidiyyəti olan əməliyyat xərcləri ilkin tanınma anında müvafiq olaraq maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə əlavə edilir, yaxud da bu dəyərdən çıxılır. Mənfəət və ya zərər hesabında əks olunmaqla maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyərlə alınmasına birbaşa aidiyyəti olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərər hesabında tanınır.

Maliyyə hesabatlılığı məqsədləri üçün ədalətli dəyər qiymətləndirmələri, belə qiymətləndirmələr üçün giriş məlumatlarının müşahidə edilə bilmə dərəcəsindən və bütövlükdə ədalətli dəyər qiymətləndirmələri üçün giriş məlumatlarının əhəmiyyətliliyindən asılı olaraq Səviyyə 1, 2, 3 kimi təsnifləndirilir. Bu səviyyələr aşağıdakılardır:

- Səviyyə 1 – Giriş məlumatları, ölçülmə tarixində müəssisənin istifadə edə biləcəyi, fəal bazarda eyni aktiv və öhdəliklər üçün təyin edilən (düzəliş edilməmiş) qiymətlərdir;
- Səviyyə 2 – Giriş məlumatları, Səviyyə 1-ə daxil olan təyin edilmiş qiymətlər istisna olmaqla, birbaşa və ya dolayısı ilə aktiv və öhdəliklər üzrə müşahidə edilə bilən giriş məlumatlarıdır; və



Scanned with CamScanner

- Səviyyə 3 – Giriş məlumatları aktiv və ya öhdəliklər üzrə müşahidə edilə bilinməyən giriş məlumatlardır.

***Maliyyə aktivləri.*** Bütün adi qaydada həyata keçirilən maliyyə aktivlərinin alqı-satqısı ticarət tarixində tanınır və ticarət tarixində uçotdan çıxarılır. Müntəzəm alqı-satqı bazarda hüquqi baza və ya konvensiya ilə müəyyən edilmiş vaxt çərçivəsində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alqı-satqısıdır. Bütün tanınan maliyyə aktivləri sonradan bütövlükdə maliyyə aktivlərinin təsnifatından asılı olaraq amortizasiya olunmuş dəyər və ya ədalətli dəyərlə ölçülür.

***Amortizasiya dəyəri və effektiv faiz metodu.*** Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri əsas borc məbləği üzrə ödənişlər çıxılmaqla, ilkin məbləğ ilə ödəniş məbləği arasında istənilən fərqin effektiv faiz metodu əsasında kumulyativ amortizasiyası əlavə edilməklə və hər hansı zərər ehtiyatı ilə bağlı düzəlişlər nəzərə alınmaqla maliyyə aktivinin ilkin tanınma zamanı ölçüldüyü dəyərdən ibarətdir. Maliyyə aktivinin ümumi balans dəyəri maliyyə aktivinin hər hansı zərər ehtiyatı ilə bağlı düzəlişdən əvvəl amortizasiya olunmuş dəyəridir.

Effektiv faiz metodu maliyyə aktivinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək nağd pul daxilolmalarını maliyyə aktivinin gözlənilən müddəti, yaxud məqsədəmüvafiq hallarda, daha qısa müddət ərzində ilkin tanınma zamanı xalis balans dəyərinə dəqiqliklə diskontlaşdıran dərəcədir.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Cəmiyyət amortizasiya olunmuş dəyərlə ölçülən borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün zərər ehtiyatını tanıyır. Gözlənilən kredit zərərlərinin məbləği müvafiq maliyyə alətinin ilkin tanınmasından etibarən kredit riskindəki dəyişiklikləri əks etdirmək üçün hər hesabat tarixində yenilənir. Əsasən Cəmiyyətin ticarət debitor borcları elektrik enerjisinin mühüm hissəsinin satıldığı bir neçə müqavilə tərəfləri üzrə cəmləşmişdir. Ticarət debitor borcları üzrə gözlənilən kredit zərərləri ehtiyat matrisindən istifadə etməklə Cəmiyyətin kredit zərəri tarixçəsi əsasında hesablanır və debitorlara aid amillər, ümumi iqtisadi şərait, eləcə də hesabat tarixindəki cari və proqnozlaşdırılan vəziyyətin istiqaməti, müvafiq hallarda pulun zaman dəyəri nəzərə alınmaqla düzəliş edilir.

Digər maliyyə alətləri üçün Cəmiyyət gözlənilən kredit zərəri ("GKZ") müddətini ilkin tanınmadan sonra kredit riskində mühüm artım olduqda tanıyır. Lakin maliyyə aləti üzrə kredit riskində ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artım olmazsa, Cəmiyyət maliyyə aləti üçün zərər ehtiyatını 12 ay üzrə gözlənilən kredit zərərinə bərabər məbləğdə ölçür. Gözlənilən kredit zərərinin müddəti maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün defolt hadisələrindən yarana bilən gözlənilən kredit zərərlərini əks etdirir. Əksinə, 12 ay üzrə gözlənilən kredit zərərləri hesabat tarixindən sonrakı 12 ay müddətində maliyyə alətləri üzrə mümkün defolt hadisələrindən yaranması gözlənilən kredit zərərləri dövrünün hissəsini əks etdirir.

***Kredit riskində əhəmiyyətli artım.*** Maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb artmadığını qiymətləndirmək üçün Cəmiyyət hesabat tarixində maliyyə aləti üzrə yaranan defolt riskini ilkin tanınma tarixində maliyyə aləti yaranan defolt riski ilə müqayisə edir. Bu qiymətləndirməni apararkən Cəmiyyət kəmiyyət və keyfiyyət baxımından uyğun olan təsdiqləyici məlumatları, habelə keçmiş təcrübəni və mühüm xərc və səylər olmadan əldə edilə bilən proqnoz tipli məlumatları nəzərə alır.

Proqnoz tipli məlumatlara Cəmiyyətin debitorlarının fəaliyyət göstərdiyi sənaye sahələri ilə bağlı iqtisadi ekspert hesabatlarından, maliyyə təhlillərindən, Dövlət idarələrindən, müvafiq elmi-tədqiqat mərkəzlərindən və oxşar təşkilatlardan əldə olunmuş gələcək perspektivlər, habelə Cəmiyyətin əsas əməliyyatları ilə bağlı müxtəlif xarici mənbələrdən əldə olunan cari və gələcək dövrlər üzrə iqtisadi məlumatlar daxildir.

Yuxarıdakı qiymətləndirmənin nəticəsindən asılı olmayaraq Cəmiyyət maliyyə aləti üzrə kredit riskinin müqavilə əsasında ödənişlər 30 gündən artıq gecikdirildiyi halda, Cəmiyyət əksini göstərən müvafiq və etibarlı məlumatlara malik olmayadək ilkin tanınma dövründən etibarən əhəmiyyətli dərəcədə artdığını zənn edir.

***Defolt anlayışı.*** Keçmiş təcrübəyə əsasən daxildə tərtib olunan və ya xarici mənbələrdən əldə olunan məlumata görə debitor öz kreditorlarına, eləcə də Cəmiyyətə öz borclarını tam şəkildə qaytarmaq iqtidarında olmadıqda, Cəmiyyət bu halı daxili kredit riskinin idarə edilməsi məqsədləri üçün defolt hadisəsi hesab edir.

Yuxarıdakı təhlillərdən asılı olmayaraq, maliyyə aktivi 90 gündən artıq gecikdirildiyi halda Cəmiyyət defolt



Scanned with CamScanner

baş verdiyini hesab edir, lakin Cəmiyyətdə daha münasib defolt meyarının uyğun olduğunu təsdiq edən müvafiq və etibarlı məlumat olduğu hallar istisnadır.

***Gözlənilən kredit zərərlərinin ölçülməsi və tanınması.*** Gözlənilən kredit zərərlərinin ölçülməsi defolt ehtimalı, defoltla bağlı zərərlər (defolt yaranarsa zərərin həcmi) və defolt zamanı zərərin həcmi funksiyasıdır.

Cəmiyyət, bütün maliyyə alətləri üçün dəyərsizləşmə gəliri və ya zərərini zərər ehtiyatı hesabında alətlərin balans dəyərinə edilən müvafiq düzəlişlə birgə mənfəət və ya zərər hesabatında tanıyır.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*** Cəmiyyət yalnız aktiv ilə bağlı pul daxilolmaları üzrə müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

***Maliyyə öhdəlikləri və kapital. Borc və ya kapital payı kimi təsnifləşdirmə.*** Borc və kapital alətləri müqavilə razılaşmalarının mahiyyəti, eləcə də maliyyə öhdəliyi və kapital aləti anlayışına əsasən maliyyə öhdəliyi və ya kapital kimi təsnifləşdirilir.

***Kreditlər və borc vəsaitləri.*** Kreditlər və borclar ilkin olaraq çəkilmiş əməliyyat dəyəri çıxılmaqla ədalətli dəyərlə tanınır. Kreditlər və borclar effektiv faiz metodundan istifadə etməklə borcların alındığı dövr ərzində mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınan gəlirlər (əməliyyat xərcləri çıxılmaqla) və geri qaytarılma dəyəri arasında hər hansı fərq nəzərə alınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması.*** Maliyyə öhdəliklərinin tanınması yalnız və yalnız Cəmiyyət öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda, yaxud müddəti başa çatdıqda dayandırılır. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq köçürülmüş hər hansı qeyri-pul aktivləri və ya ehtimal edilən öhdəliklər daxil olmaqla məcmu gəlirlər haqqında hesabatda tanınır.

***Maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi.*** Maliyyə aktivləri və maliyyə öhdəlikləri əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir, ancaq o halda ki tanınmış məbləğləri əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş hüquq olsun və xalis əsasda hesablaşmalar aparmaq niyyəti olsun və ya aktivlərin satılması və öhdəliyin ödənilməsi eyni vaxtda yerinə yetirilsin. Qanuni qüvvəyə minən hüquq gələcək hadisələrdən asılı olmamalıdır və adi fəaliyyət zamanı və defolt, müflisləşmə və ya iflas vəziyyətində həyata keçirilməlidir. Hər hansı mühasibat uçotu standartı və ya şərhi tələb etmədiyi və ya icazə vermədiyi və Cəmiyyətin uçot siyasətində xüsusi olaraq açıqlandığı hallar istisna olmaqla, gəlir və xərclər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əvəzləşdirilmir.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul və tələb edilənədək bank qalıqları daxildir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

***Məhdudiyyət qoyulmuş pul vəsaitləri.*** Məhdudiyyət qoyulmuş pul vəsaitləri "pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri" kateqoriyasından ayrıca göstərilir. Məhdudiyyət qoyulmuş qalıqlar ƏDV depozit qalığında mövcud olan məbləğdən ibarətdir və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin tərkibindən çıxarılır.

***Ticarət və sair debitor borclar.*** Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarınnın (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alicilar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.



Scanned with CamScanner

Ticari debitor borclarına ehtimal olunan ümidsiz borclara ehtiyatlar aşağıdakı qaydada təsnifləşdirilir:

| | |
|---|---|
| Vaxtı keçməmiş və 30 günə qədər gecikmə | - 0% |
| Ödəmə müddətindən 30-60 günə qədər gecikmə | - 2% |
| Ödəmə müddətindən 60-90 gün gecikmə | - 10% |
| Ödəmə müddətindən 90-180 gün gecikmə | - 30% |
| Ödəmə müddətindən 180-360 gün gecikmə | - 60% |
| Ödəmə müddətindən 360 gündən artıq gecikmə | - 100% |

***Ticarət və sair kreditor borclar.*** Ticarət və sair kreditor borclar qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərlə tanınır.

***Borclar üzrə məsrəflər.*** Borclar ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə, sonra isə effektiv faiz metoduna əsasən amortizasiya edilmiş dəyərlə tanınır. Şərtlərə cavab verən aktivin əldə olunması, tikilməsi və ya istehsalı ilə birbaşa əlaqəli olan borclar üzrə məsrəflər, həmin aktivin dəyərinin bir hissəsi kimi kapitallaşdırılmalıdır. Bütün digər hallarda borclar üzrə məsrəflər baş verdiyi tarixdə mənfəət və zərərə silinir. Borclar üzrə xərclərə faiz dərəcəsi və borcun əldə edilməsinə çəkilən digər xərclər daxildir.

***Mal-material ehtiyatları.*** Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərlə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri FİFO metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış tikililərin maya dəyərinə borc öhdəlikləri üzrə xərclər çıxılmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Mümkün xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

***Avans ödənişləri.*** Avans ödənişləri ehtiyac yarandıqda dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, maya dəyəri ilə uçota alınır. Avans ödənişi üzrə mal və xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu ödəniş ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivi əldə etmək üçün avans ödənişləri Şirkət bu aktiv üzərində nəzarəti əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Şirkətə daxil olacağı ehtimal edildikdə aktivin balans dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu mal və xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar, yaxud xidmətlərin əldə edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır.

**Nizamnamə kapitalı.** Nizamnamə kapitalı yalnız adi səhmlərdən ibarətdir. Yeni səhmlərin emissiyası ilə birbaşa əlaqəli olan əlavə xərclər kapitalda daxilolmaların azalması kimi (vergi çıxılmaqla) göstərilir.

**Dividendlərin verilməsi.** Cəmiyyətin təsisçilərinə dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin təsisçiləri tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir). Cəmiyyətin təsisçilərinə 2024-cü ildə 314,411 manat, 2025-ci ildə 553,311 manat dividend ödənilmişdir.

**Ehtiyatlar və şərti öhdəliklər.** Ehtiyatlar Cəmiyyətin keçmiş hadisələr nəticəsində cari öhdəliyə (hüquqi və ya konstruktiv) malik olduqda, ondan belə öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edildikdə və öhdəlik məbləği etibarlı şəkildə hesablana bildikdə uçota alınır. Ehtiyat kimi uçota alınmış məbləğ öhdəlik üzrə risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hər hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsinin tələb olunması ilə bağlı aparılmış hesablamalardan ən dəqiqidir. Ehtiyat cari öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul axınlarından istifadə etməklə ölçüldüyü halda, onun balans dəyəri həmin pul axınlarının cari dəyərindən ibarət olur (o halda ki, pulun zaman dəyərinin təsiri əhəmiyyətli dərəcədə böyük olur). Ehtiyat yaradılmış öhdəliklərin ödənilməsi üçün tələb olunan iqtisadi mənfəətin müəyyən hissəsinin və ya hamısının üçüncü tərəf hesabına bərpa olunacağı gözlənilərsə və belə kompensasiya məbləğlərinin alınmasına faktiki olaraq əminlik yaranarsa və alınacaq məbləğlər etibarlı şəkildə hesablana bilərsə alınacaq məbləğlər aktiv kimi uçota alınır. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin iqtisadi mənfəətin istifadə edilməsi ehtimalı az olduqda maliyyə hesabatlarına qeydlərdə açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin iqtisadi mənfəətin əldə edilməsi ehtimalı olduqda qeydlərdə açıqlanır.



Scanned with CamScanner

**Vergiqoyma**

Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisi xərclərinin cəmini təşkil edir.

**Cari vergi**

Cari mənfəət vergisi öhdəliyi ili üzrə vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Vergiyə cəlb olunan mənfəət mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir, çünki ona digər illərdə vergiyə cəlb olunan, yaxud gəlirdən tutulan, habelə heç vaxt vergiyə cəlb olunmayan, yaxud gəlirdən tutulmayan gəlir və xərc müddəaları daxil deyildir. Cəmiyyətin cari vergi üzrə öhdəliyi hesabat dövrünün sonunda qüvvəyə minmiş və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri ilə hesablanır.

Vergi yanaşmasının qeyri-müəyyən olduğu, lakin gələcəkdə vergi orqanına vəsaitlərin ödənilməsi ehtimalının yüksək olduğu məsələlər üçün ehtiyat tanınır. Ehtiyatlar ən yaxşı təxmin əsasında ödənilməsi gözlənilən məbləğ kimi ölçülür. Qiymətləndirmə Cəmiyyətin daxili vergi mütəxəssislərinin bu cür fəaliyyətlərlə bağlı keçmiş təcrübələrinə əsaslanan mühakimələri və bəzi hallarda müstəqil vergi məsləhətlərinə əsasən aparılır.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə olunan müvafiq vergi bazası arasındakı fərqlər əsasında ödənilməsi və ya əvəzləşdirilməsi gözlənilən vergidir və o, öhdəlik metodu əsasında uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri ümumi olaraq vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır və təxirə salınmış vergi aktivləri vergiyə cəlb olunan mənfəətin əldə edilə biləcəyi və onlara qarşı müvəqqəti çıxılan fərqlərin istifadə edilməsi ehtimal olunan həcmdə tanınır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və gələcəkdə aktivin bütövlüklə və ya onun bir hissəsinin bərpa edilməsi üçün kifayət məbləğdə mənfəətin yaranacağı ehtimal edilmədiyi təqdirdə azaldılır.

Təxirə salınmış vergi hesabat dövrünün sonunda qanuni qüvvəyə minmiş və ya tam qüvvəyə minmiş vergi qanunvericiliyinə və vergi dərəcələrinə əsaslanmaqla öhdəliyin yerinə yetirildiyi və ya aktivin satıldığı dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcələri ilə hesablanır.

Vergi aktivləri və öhdəliklərinin ölçülməsi Cəmiyyətin hesabat dövrünün sonunda aktiv və öhdəliklərin balans dəyərinin bərpa olunacağını gözləməsi ilə əlaqədar yarana biləcək vergi nəticələrini əks etdirir.

Təxirə salınmış vergi aktivləri və vergi öhdəlikləri yalnız cari vergi aktivlərini cari vergi öhdəliklərinə qarşı əvəzləşdirmək üçün qanuni hüquq mövcud olduqda, onlar eyni vergi orqanı tərəfindən tətbiq olunan mənfəət vergisinə aid olduqda və Cəmiyyət cari vergi aktivləri və öhdəlikləri üzrə xalis hesablaşmalar aparmaq niyyətində olduqda əvəzləşdirilir.

**İl üzrə cari və təxirə salınmış vergi**

Cari və təxirə salınmış vergi, sair məcmu gəlirdə yaxud birbaşa kapitalda tanınan müddəalar ilə əlaqədar olduğu və buna müvafiq olaraq sair məcmu gəlirdə yaxud birbaşa kapitalda tanındığı hallar istisna edilməklə, mənfəət və ya zərər hesabında tanınır. Cari və təxirə salınmış vergi müəssisələrin birləşməsi üzrə ilkin mühasibat uçotundan irəli gəldiyi halda, vergi effekti müəssisələrin birləşməsi üzrə mühasibat uçotunda əks etdirilir.

**Əməliyyat vergiləri**

Azərbaycanda Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər də vardır (məsələn əmlak vergisi, sosial təminat üçün vergi və ödəmə mənbəyindən tutulan vergi). Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda göstərilir.

**ƏDV üzrə kreditor borcu**

ƏDV üzrə kreditor borcu pul vəsaitlərinin əldə edilməsi və malların və xidmətlərin təhvili zamanı daha öncə baş verməsindən asılı olaraq hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla vergi orqanlarına ödənilməli olan satış üzrə ƏDV məbləğidir. Hesabat tarixində əvəzləşdirilməmiş satışlar üzrə ƏDV (ƏDV-nin təxirə salınması) həmçinin ƏDV üzrə kreditor borcuna daxildir. Debitor borclarının



Scanned with CamScanner

dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə ehtiyat lazım olduqda ƏDV daxil olmaqla, debitor borcun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır. Vergi orqanları satış və alışdan yaranan ƏDV-lərin əvəzləşdirilməsinə icazə verir.

**Əvəzləşdirilə bilən ƏDV**

Əvəzləşdirilə bilən ƏDV hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Əvəzləşdirilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda və malların və xidmətlərin təhvili zamanı satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər (bu zaman ƏDV üzrə debitor borcu yaranır).

***Funksional və təqdimat valyutası.*** Şirkətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Şirkətin əməliyyat və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN"). Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Şirkətin təqdimat valyutası olan Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

***Xarici valyuta.*** Cəmiyyətin əməliyyat valyutasından başqa digər valyutada (xarici valyutada) aparılmış əməliyyatlar belə əməliyyatların baş verdiyi tarixə olan valyuta məzənnələri ilə tanınır. Hər hesabat dövrünün sonunda xarici valyutada ifadə edilmiş monetar balans maddələri həmin tarixə olan mübadilə məzənnələri ilə yenidən əməliyyat valyutasına çevrilir. Ədalətli dəyərlə qeyd edilən xarici valyutada ifadə olunmuş qeyri-monetar maddələr onların ədalətli dəyərlərinin müəyyənləşdirildiyi tarixə olan məzənnələrlə əməliyyat valyutasına çevrilir. Tarixi dəyərdə tanınan xarici valyutada olan qeyri-monetar maddələr təkrarən əməliyyat valyutasına çevrilmir. Pul vahidləri üzrə məzənnə fərqləri baş verdiyi dövrdə mənfəət və ya zərər hesabında tanınır. Cəmiyyətin maliyyə hesabatlarının hazırlanmasında tətbiq etdiyi valyuta mübadiləsi məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| 1 ABŞ dolları/AZN | 1,7000 | 1,7000 |
| 1 EUR/AZN | 2,0022 | 1,7724 |

**Müqavilə üzrə gəlirlər.** 15 saylı MHBS müştərilərlə bağlanmış müqavilər üzrə gəlirləri hesablamaq üçün beş-addımlı bir model təqdim edir. 15 saylı MHBS-ə uyğun olaraq beş-addımlı model aşağıdakı kimidir:

1-ci addım: Müştərilərlə bağlanmış müqavilələni müəyyən etmək;
2-ci addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
3-cü addım: Əməliyyat qiymətini müəyyən etmək;
4-cü addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
5-ci addım: Müəssisə müqavilə üzrə öhdəliyi yerinə yetirirsə müvafiq gəlirin tanınması.

Gəlir müəssisəyə gələcəkdə iqtisadi səmərənin daxil olması və onların etibarlı əsasda qiymətləndirilməsi ehtimalı olduqda tanınır. Gəlirin məbləği, alış-satış ilə bağlı hər hansı güzəşt məbləğləri və müəssisə tərəfindən edilmiş güzəştlər nəzərə alınmaqla, alınmış və ya alınacaq vəsaitlərin ədalətli dəyəri ilə ölçülür. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

Malların satışı

Malların satışından gələn gəlir, mülkiyyət hüququ ilə bağlı mühüm risklərin və mülkiyyətlə bağlı mükafatların müəssisə tərəfindən alıcıya ötürülən zaman, adətən mallar alıcıya çatdırılanda tanınır.

Xidmətlərin göstərilməsi

Hesabat dövründə yükdaşıma xidmətləri ilə bağlı olan gəlirlər xidmət göstərildikdə və konkret köçürmələrin tələb olunması dayandırıldıqdan sonra tanınır. Xidmətin yerinə yetirilmə dərəcəsi faktiki olaraq görstərilmiş xidmətlərin məbləğinin müqavilə üzrə göstərilməli olan dəyərin nisbəti kimi hesablanır. Tələb olunan konkret köçürmələrin bitmə dərəcəsi faktiti xidmətlərin dəyərinin gələcəkdə realizə ediləcək xidmətlərin dəyərindəki payı kimi qiymətləndirilir.

Faiz gəlirləri

Faiz gəlirləri effetiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Faiz gəlirləri mənfəət və zərərlər hesabatında maliyyə gəlirləri başlığı altında qeyd olunur.

İcarə gəlirləri

Lizinq əməliyyatlarından icarə gəlirləri lizinqin müddətinə müvafiq olaraq düz xətli metod tətbiq edilməklə tanınır.

**İşçi heyəti ilə bağlı ödənişlər.** Hesabat dövründə işçilərə göstərdikləri xidmətlər müqabilində ödəniləcək əmək haqları, o cümlədən istifadə edilməmiş məzuniyyət və mükafatlar üzrə hesablanmış məbləğlər və



Scanned with CamScanner

əlaqəli sosial ayırmalar bu müavinətlər işçilər tərəfindən qazanıldığı dövrdə uçotda xərc kimi tanınır. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq pensiya ödənişləri işəgötürən tərəfindən əmək haqqı ilə bağlı xərclərin müəyyən faizi məbləğində hesablanır və daha sonra Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna köçürülür. Belə xərclər aidiyyəti əmək haqlarının qazanıldığı dövr üzrə mənfəət və ya zərər hesabına daxil edilir. İşçi təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Cəmiyyətin Azərbaycan Respublikasının Dövlət pensiya sistemindən ayrı hər hansı pensiya razılaşmaları yoxdur.

## 4 Mühüm mühasibat uçotu mühakimələri və təxminlərlə bağlı qeyri-müəyyənliklərin əsas mənbələri

Qeyd 3-də əks olunan uçot siyasətlərini tətbiq edərkən, Cəmiyyət rəhbərliyindən digər mənbələrdən hazır əldə edilə bilməyən aktiv və öhdəliklərin balans dəyəri, habelə gəlir və xərclərin uçotda tanınmış məbləğləri üzrə mühakimələr, hesablamalar və fərziyyələrin irəli sürülməsi tələb olunur.

Təxminlər və onlarla əlaqəli ehtimallar təcrübəyə və digər müvafiq amillərə əsaslanır. Faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Təxminlər və əsas götürülən ehtimallar davamlı qaydada nəzərdən keçirilir. Mühasibat təxminlərinə olan düzəlişlər cari hesabat dövründə və ya düzəlişin verildiyi dövrdə, gələcək dövrlərə təsir göstərdiyi halda isə həm hazırkı, həm də gələcək dövrlərdə tanınır.

## 5 Yeni və düzəliş edilmiş standartlarının tətbiqi

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən buraxılmış və 1 yanvar 2025-ci il tarixində başlayan və ondan sonrakı hesabat dövrləri üçün icbari qaydada qüvvədə olacaq MHBS üzrə Uçot Standartlarına aşağıdakı düzəlişləri tətbiq etdi. Bu düzəlişlərin qəbul edilməsi hazırkı maliyyə hesabatlarındakı açıqlamalara və ya təqdim olunan məbləğlərə hər hansı əhəmiyyətli təsir göstərməmişdir.

| **Standartlar** | **Qüvvəyə minmə tarixi** |
|---|---|
| MUBS 21-ə düzəlişlər -*Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri - Məhdud mübadilə qabiliyyəti* | *1 yanvar 2025-ci il* |

## 6 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS üzrə Uçot Standartları

Aşağıdakı yeni və düzəliş edilmiş MHBS üzrə Uçot Standartları 31 dekabr 2025-ci il tarixində başa çatan il üçün icbari qaydada qüvvədə deyil. Lakin onların erkən tətbiq edilməsi mümkündür. MUBS 8-in 30 saylı bəndində müəssisələrdən buraxılmış, lakin hələ qüvvəyə minməmiş, yeni və düzəliş edilmiş MHBS üzrə Uçot Standartlarının potensial təsirinin nəzərə alınması və açıqlanması tələb olunur.

Bu maliyyə hesabatlarının buraxılmasının təsdiqləndiyi tarixə Cəmiyyət aşağıda göstərilən buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS üzrə Uçot Standartlarını tətbiq etməmişdir:

| **Standartlar** | **Qüvvəyə minmə tarixi** |
|---|---|
| MHBS 9 Maliyyə Alətləri və MHBS 7 Maliyyə Alətləri: Məlumatın açıqlanması – Maliyyə Alətlərinin Təsnifatı və Ölçülməsi ilə bağlı düzəlişlər | *1 yanvar 2026-cı il* |
| Konsolidə edilmiş Maliyyə Hesabatları haqqında MHBS 10-a və Asılı və Birgə müəssisələrə investisiya qoyuluşları haqqında MUBS 28-ə düzəlişlər – İnvestorla onun asılı müəssisəsi və ya birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi | *1 yanvar 2026-cı il* |



Scanned with CamScanner

| | |
|---|---|
| MHBS üzrə Uçot standartlarına illik təkmilləşdirmələr – MHBS 1, MHBS 7, MHBS 9, MHBS 10 və MUBS 7-yə düzəlişlər | *1 yanvar 2026-cı il* |
| MHBS 18 – Maliyyə hesabatlarında təqdimat və açıqlama | *1 yanvar 2027-ci il* |
| MHBS 19 – Publik hesabatsız törəmə müəssisələr: Açıqlamalar | *1 yanvar 2027-ci il* |

Rəhbərlik yuxarıda sadalanan yeni standartların qəbul edilməsinin və mövcud standartlara düzəlişlərin gələcək dövrlərdə Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcəyini gözləmir.

## 7 Torpaq, tikili və avadanlıqlar

| Azərbaycan manatı ilə | **Maşınlar və avadanlıqlar** | **İT və hesablama texnikası** | **Nəqliyyat vasitələri** | **Cəmi torpaq, tikili və avadanlıq** |
|---|---|---|---|---|
| **31/12/2023-cü il İlkin dəyər** | **-** | **11,110** | **92,256** | **103,366** |
| Yığılmış amortizasiya | - | (4,025) | (49,011) | **(53,036)** |
| **31/12/2023-cü il qalıq dəyəri** | **-** | **7,085** | **43,245** | **50,330** |
| Əlavələr – daxil olma | 10,907 | 1,157 | - | **12,064** |
| İl üzrə amortizasiya ayırmaları | (2,181) | (2,060) | (10,811) | **(15,052)** |
| **31/12/2024-cü il İlkin dəyər** | **10,907** | **12,267** | **92,256** | **115,430** |
| Yığılmış amortizasiya | (2,181) | (6,085) | (59,822) | **(68,088)** |
| **31/12/2024-cü il qalıq dəyəri** | **8,726** | **6,182** | **32,434** | **47,342** |
| Əlavələr – daxil olma | - | 9,162 | 38,498 | **47,660** |
| İl üzrə amortizasiya ayırmaları | (1,745) | (3,836) | (17,733) | **(23,314)** |
| **31/12/2025-cü il İlkin dəyər** | **10,907** | **21,429** | **130,754** | **163,090** |
| Yığılmış amortizasiya | (3,926) | (9,921) | (77,555) | **(91,402)** |
| **31/12/2025-cü il qalıq dəyəri** | **6,981** | **11,508** | **53,199** | **71,688** |

## 8 Mal-material ehtiyatları

| *Azərbaycan manatı ilə* | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Mallar | 533,314 | 197,117 |
| **Cəmi mal-material ehtiyatları** | **533,314** | **197,117** |

## 9 Ticarət və digər debitor borclar

| *Azərbaycan manatı ilə* | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Alıcıların və sifarişçilərin debitor borcları | 493,951 | 768,887 |
| Dövlət büdcəsinə vergilər üzrə debitor borclar | 3,014 | - |
| **Cəmi ticarət və digər debitor borcları** | **496,965** | **768,887** |

| *Azərbaycan manatı ilə* | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Uzunmüddətli | 387,782 | - |
| Qısamüddətli | 109,183 | 768,887 |
| **Cəmi ticarət və digər debitor borcları** | **496,965** | **768,887** |



Scanned with CamScanner

## 10 Pul vəsaitləri və onların ekvivalentləri

| *Azərbaycan manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Bank hesablarında olan pul vəsaitləri | 99,760 | 130,827 |
| ƏDV depozit hesabında olan pul vəsaitləri | - | 47,245 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **99,760** | **178,072** |

| *Azərbaycan Manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri: | | |
| Milli valyutada bank hesabları | 99,643 | 130,527 |
| Xarici valyutalarda bank hesabları | 117 | 300 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **99,760** | **130,827** |

## 11 Sair qısamüddətli aktivlər

| *Azərbaycan manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Sair aktivlər | 738,188 | 126,340 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **738,188** | **126,340** |

## 12 Uzunmüddətli öhdəliklər

| *Azərbaycan manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Bank kreditləri | 141,611 | - |
| **Cəmi borc öhdəlikləri** | **141,611** | **-** |

## 13 Ticarət və digər kreditor borclar

| *Azərbaycan manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Təchizatçılara olan kreditor borclar | 1,579,834 | 590,875 |
| **Cəmi ticarət və digər kreditor borclar** | **1,579,834** | **590,875** |

| *Azərbaycan manatı ilə* | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| Uzunmüddətli | 1,521,147 | - |
| Qısamüddətli | 58,687 | 590,875 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **1,579,834** | **590,875** |

## 14 Gəlirlər

| *Azərbaycan manatı ilə* | 2025 | 2024 |
|---|---|---|
| Malların təqdim edilməsi | 3,946,848 | 4,954,267 |
| **Cəmi əsas əməliyyat gəlirləri** | **3,946,848** | **4,954,267** |

## 15 Satışın maya dəyəri

| *Azərbaycan manatı ilə* | 2025 | 2024 |
|---|---|---|
| Malların dəyəri | (3,106,524) | (3,847,539) |
| **Cəmi satışın maya dəyəri** | **(3,106,524)** | **(3,847,539)** |



Scanned with CamScanner

## 16 Ümumi və inzibati xərclər

| *Azərbaycan manatı ilə* | 2025 | 2024 |
|---|---|---|
| Əmək haqqı xərcləri | (195,677) | (135,033) |
| Sosial sığorta haqqı xərcləri | (36,916) | (25,527) |
| Köhnəlmə xərcləri | (23,314) | (15,053) |
| İcarə haqqı | (106,007) | (45,981) |
| Ezamiyyə xərcləri | (61,348) | (54,971) |
| Yanacaq xərcləri | (43,209) | (28,978) |
| Rabitə xərci | (5,080) | (2,813) |
| Bank xidməti üzrə xərclər | (32,266) | (6,862) |
| Reklam xərcləri | - | (11,597) |
| Bilavasitə malların təqdim edilməsi ilə bağlı xərclər | (3,557) | (42,279) |
| Nəqliyyat xərcləri | (29,096) | (68,495) |
| Sığorta xərcləri | (19,020) | (646) |
| Digər xərclər | (228,116) | (190,457) |
| Əmlak vergisi | (595) | (488) |
| **Cəmi əməliyyat xərcləri** | **(784,201)** | **(629,180)** |

## 17 Maliyyə gəlirləri/(xərcləri)

| *Azərbaycan manatı ilə* | 2025 | 2024 |
|---|---|---|
| Bank kreditləri üzrə faiz xərcləri | - | (2,838) |
| **Cəmi maliyyə xərcləri** | **-** | **(2,838)** |

## 18 Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur. 31 dekabr 2025-ci və 2024-ci il tarixlərinə, həmçinin həmin illər üzrə əlaqəli tərəflərlə qalıq və ya əməliyyatlar qeyd edilməmişdir.

Aşağıda qeyd olunan məbləğlər əlaqəli tərəflərlə əməliyyatlardan yaranmış və 31 dekabr 2025 və 2024-cü illər üzrə məcmu gəlir hesabatına daxil edilmişdir.

| **Əlaqəli tərəflərlə əməliyyatlar Xərclər -/Gəlirlər +** | **2025** | **2024** |
|---|---|---|
| Rəhbər işçilərə verilmiş əmək haqqı və sosial sığorta xərcləri | 40,800 | 20,910 |

## 19 Təəhhüdlər və şərti öhdəliklər

**Məhkəmə prosesləri.** Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Şirkətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar olaraq Rəhbərlik öz təxminlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq 31 dekabr 2025 və 2024-cü il tarixinə hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

**Şərti vergi öhdəlikləri.** Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Şirkətin əməliyyatları və fəaliyyəti ilə bağlı



Scanned with CamScanner

belə qanunvericiliyə dair rəhbərliyin mövqeyi müvafiq vergi orqanları tərəfindən mübahisələndirilə bilər. Bunun nəticəsində Şirkətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Şirkətin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Şirkətin mövqeləri dəyişilməyəcəkdir. Müvafiq olaraq, 31 dekabr 2025-cü il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

(31 dekabr 2024: potensial vergi öhdəlikləri üzrə ehtiyat yaradılmamışdır).

**Kapital məsrəfləri ilə bağlı öhdəliklər.** 31 dekabr 2025 və 2024-cü il tarixinə Şirkətin ofis binası və avadanlıqlar ilə əlaqədar ilə bağlı müqavilə öhdəlikləri olmamışdır.

## 20 Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsində əsas məqsəd risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Kredit riski.** Maliyyə aləti üzrə bir tərəf öz öhdəliyini yerinə yetirə bilməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Şirkət kredit riskinə məruz qalır. Kredit riski Şirkətin kredit şərtləri ilə məhsul satışları və təklif etdiyi xidmətlər, həmçinin maliyyə aktivlərinin yaranmasına səbəb olan qarşı tərəflərlə aparılan digər əməliyyatlar nəticəsində yaranır.

Şirkətin məruz qaldığı kredit riskinin maksimum səviyyəsi maliyyə aktivlərinin balans dəyəri ilə əks etdirilir və aşağıdakı cədvəldə göstərildiyi kimi aktivlərin növləri üzrə təqdim edilir:

| | **2025** | **2024** |
|---|---|---|
| | AZN | AZN |
| Pul vəsaitləri və onların ekvivalentləri (Qeyd 10) | 99,760 | 178.072 |
| Ticarət debitor borcları, xalis (Qeyd 9) | 496,965 | 768,887 |
| **Balans üzrə cəmi risklər** | **596,725** | **946,959** |

***(i) Pul vəsaitləri və onların ekvivalentləri.*** Şirkət pul vəsaitlərini müstəqil kommersiya bankları olan "Kapital Bank" ASC, "Azər-Türk Bank" ASC, "Bank Avrasiya" ASC, "Expressbank" ASC, "TuranBank" ASC və "Ziraat Bank Azərbaycan" ASC-də saxlayır. Şirkət qeyd olunan bankın statusuna mütəmadi olaraq nəzarət edir.

Kredit riskinin təsnifatı sistemi. Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Şirkət beynəlxalq reytinq agentlikləri (Standard & Poor's - "S&P", Fitch, Moody's) tərəfindən müəyyən edilən ödəmə qabiliyyəti dərəcələrindən istifadə edir. Xarici kredit reytinqləri və müvafiq ödəmə qabiliyyəti dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| **Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri** | **Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (Moody's)** |
|---|---|
| Ən yüksək dərəcə | AAA dan BB+ dək |
| Yüksək dərəcə | BB dən B+ dək |
| Orta dərəcə | B, B- |
| Xüsusi monitorinq tələb edir | CCC+ dən CC- dək |
| Defolt | C, D-I, D-II |

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;



Scanned with CamScanner

- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

Kontragentlərə kənar reytinqlər S&P, Moody's və Fitch kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır. Həmin reytinqlər və defolt ehtimalları üzrə müvafiq intervallar aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: pul vəsaitləri və onların ekvivalentləri.

Bu reytinqlər topdansatış müştərilər üçün müstəqil qiymətləndirmə aparıldıqda tətbiq olunur. Əks təqdirdə Şirkətin risklərə nəzarət funksiyası müştərinin maliyyə vəziyyətini, keçmiş təcrübəsini və digər amilləri nəzərə alaraq, onun kredit keyfiyyətini qiymətləndirir.
Fərdi risk limitləri rəhbərlik tərəfindən müəyyən edilmiş limitlərə uyğun olaraq daxili və ya xarici reytinqlərə əsasən yaradılır. Topdansatış müştərilərin kredit limitlərinə uyğunluğu müntəzəm olaraq rəhbərlik tərəfindən yoxlanılır.

***Bazar riski.*** Şirkət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) xarici valyuta (b) faiz dərəcələri və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar riskinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

***Xarici valyuta riski.*** Valyuta riski əsasən gələcək kommersiya əməliyyatları, eləcə də aktiv və öhdəliklər Şirkətin müvafiq əməliyyat valyutasından başqa valyutalarda ifadə olunduqda yaranır.
Yuxarıdakı cədvələ yalnız monetar aktivlər və öhdəliklər daxildir. Şirkət hesab edir ki, qeyri-monetar aktivlər əhəmiyyətli valyuta riskinin yaranmasına gətirib çıxarmır.
Şirkətin bütün əməliyyatları Azərbaycan manatında olmuşdur.

***Faiz dərəcəsi riski.*** Şirkətin əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti bazar faiz dərəcələrinin dəyişməsi ilə əlaqədar riskə məruz qalmır. Rəhbərlik faiz dərəcəsi üzrə risklərin Şirkətin fəaliyyətinə əhəmiyyətli təsir göstərmədiyini hesab etdiyinə görə belə risklərin idarə edilməsi üçün rəsmi siyasət və prosedurlara malik deyil.

***Əmtəə riski.*** Şirkət rəqabətli bazar şəraitində fəaliyyət göstərir. Buna baxmayaraq, rəhbərlik Şirkətin əmtəə strukturunu, bazar mövqeyini və rəqabət şəraitini nəzərə alaraq malların qiymətlərindəki dəyişikliklər ilə əlaqədar olaraq əhəmiyyətli riskə məruz qalmadığını hesab edir. Hazırda Şirkət qiymətlərdəki hər hansı mümkün dəyişikliklərin təsirini azaltmaq məqsədilə derivativ maliyyə alətlərindən istifadə etmir.

***Likvidlik riski.*** Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində müəssisənin çətinliklərlə üzləşəcəyi riskdir.
Şirkət mövcud olan nağd pul vəsaitlərindən gündəlik istifadə ehtiyacı ilə əlaqədar olaraq risklə qarşılaşır. Likvidlik riski Şirkətin rəhbərliyi tərəfindən idarə edilir. Şirkət hər ay pul vəsaitlərinin hərəkətləri üzrə proqnozlara nəzarət edir.

Şirkətin likvidlik portfeli pul vəsaitləri və onların ekvivalentlərindən ibarətdir (Qeyd 10). Rəhbərliyin təxminlərinə görə likvidlik portfelindəki pul vəsaitləri və onların ekvivalentləri likvidliklə bağlı gözlənilməz tələblərin yerinə yetirilməsi üçün bir gün ərzində pul vəsaitlərinə çevrilə bilər.

## 21 Kapitalın idarə edilməsi

Şirkət idarə olunan məcmu kapitalın nizamnamə kapitalından, kapital ehtiyatlarından və bölüşdürülməmiş mənfəətdən ibarət olduğunu hesab edir və bunları maliyyə hesabatlarında kapitalda qeydə alır. Kapitalın idarə olunmasında Şirkətin məqsədi fəaliyyətin fasiləsizliyini təmin etməklə səhmdarlar üçün müvafiq gəlirlilik səviyyəsini təmin etmək və kapital xərclərini azaltmağa imkan verən optimal kapital strukturunu saxlamaqdır.
Şirkətin idarə olunan kapital ilə bağlı xüsusi normativlərə riayət etməsi tələb olunmur.



Scanned with CamScanner

## 22 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayışı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

Maliyyə aktivləri və öhdəliklərinin balans dəyəri 3-cü səviyyədə ölçülür və təxminən onların ədalətli dəyərinə bərabərdir. Maliyyə öhdəliklərinin ədalətli dəyəri, analoji maliyyə alətləri üçün Şirkətdə mövcud olan cari bazar faiz dərəcəsi ilə gələcək müqavilə üzrə pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla təxmin edilir.

## 23 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra açıqlanmalı olan əhəmiyyətli hadisələr baş verməmişdir.



Scanned with CamScanner